Ədəbiyyat QƏZETİ №33 31 avqust 2024-cü il 21

# Çiçək MAHMUDQIZI-60



Hörmətli Çiçək Mahmudqızı!

Sizi - tanınmış şair və televiziya jurnalistini 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1964-cü il mart ayının 5-də Qazax rayonunun Qaymaqlı kəndində dünyaya göz açmısınız. 1981-ci ildə Qaymaqlı kənd orta məktəbini bitirib 1982-ci ildə Azərbaycan Dillər Universitetinə daxil olmusunuz. 1987-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmisiniz. 1987-ci ildən etibarən respublikamızın bir sıra bölgələrində müəllim kimi çalışmısınız. Vaxtaşırı dövri mətbuatda şeirləriniz və publisistik yazılarınızla çıxış etmiş, Azərbaycan Radiosunda ştatdankənar müxbir kimi fəaliyyət göstərmisiniz. 1984-cü ildən əsası qoyulan "Aşıq Pəri" məclisinin ilk üzvlərindən olmusunuz. 1993-cü ildən Gəncə şəhərinə köçmüş, həm orta məktəbdə, həm də Gəncə Dövlət Universitetində müəllim kimi çalışmısınız. Müxtəlif illərdə "Kəpəz" televiziyasında "Mənim şeirli dünyam", "Duyğulu könüllər", "Türkel" televiziyasında "Saz-söz dünyası", "Xoş ovqat" verilişlərinin müəllifi və aparıcısı olmusunuz. 2015-ci ildən "Könül Körpüsü" proqramının müəllif-aparıcısı kimi saz və söz sənətinə xidmət edən, milli dəyərlərimizi təbliğ edən çoxlu sayda verilişlər hazırlayıb yayınlamısınız. Dünyanın cox yerindən ünlü ozanların, şairlərin və aşıqların qatıldığı "İncəgülü" saz-söz şöləninin layihə rəhbərisiniz. Bu il həmin layihənin 10-cu sayı bütün dünyaya yayımlanmaqdadır. İndiyədək "Bənövşə yaşlar" və "Könüllərin çiçəyi" adlı şeir və publisistika kitablarınız nəşr edilib.

Hörmətli Çiçək xanım!

Sizi bir daha yubileyiniz münasibəti ilə təbrik edir, sizə möhkəm cansağlığı və yaradıcılıq uğurları diləyirik!

**Azərbaycan Yazıçılar Birliyi**